TURAN-SAM(TURAN-CSR)
YIL: 2013 * CİLT: 5 * SAYI: 18 * İLKBAHAR, 2013
YEAR: 2013 * VOLUME: 5 * ISSUE: 18 * SPRING, 2013
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
(JOURNAL OF TURAN CENTER FOR STRATEGICAL RESEARCHES)
www.turansam.org

**(4)**

# MİRZƏ FƏTƏLİ AXUNDOV, HEYDƏR HÜSEYNOVUN TƏDQİQİNDƏ
# TÜRKÇE: HAYDAR HÜSEYİNOV'UN ARAŞTIRMASINDA MİRZE FETH ALİ AHUNDOV
# ENGLISH: MIRZA FATALI AHUNDOV AS A HAYDAR HUSEYNOV'S RESEARCH

**Dr. Rəşad ƏSGƏROV***

## ÖZET

Makalede bu sene 200. yıldönümünü kutladığımız Mirza Fatali Ahundov'un felsefi, bilimsel görüşleri, etik ve estetik bakış açısı, ayrıca din konusundakı felsefi fikirleri, kadın-erkek eşitliği, elifba ıslahatı ve diğer konular araştırılmıştır. Bu aratırmada Ahundov'un Batılı aydınların eserlerine referansları ve bununla ilgili Haydar Huseynov'un araştırmaları ışığında Azerbaycan'da aydınlanma felsefesinin gelişimindeki hizmetleri tetkik edilmiştir. Önceleri Doğu'da oluşan tüm noksanları İslam dini ve bu dinin devamcıları sayılan mollalarla ilişkilendiren Ahundov, daha sonra İslama daha yumuşak yaklaşımda bulunmuş, milli-manevi değerlerin milletlerin yaşamlarındakı olumlu etkisini belirtmiştir.

Ahundov idrak nazariyesinde rasyonalizmden yola çıkarak idrak sürecinde hissi olanla rasyonel olanın vahdetini kabul etmiştir. Makalede Haydar Huseynov'un araştırmaları sonucunda Ahundov'un ilmi mirasının tüm Doğu halklarının, özellikle Azerbaycan halkının milli kültürel gelişimindeki rolü vurgulanmıştır.

**Anahtar Kelimeler**: Aydınlanma, Demokrasi, Hürriyet, İdeolojik Akım, Rasyonel İdrak, Sosyal Gelişim.

## ABSTRACT

Mirza Fatali Akhundov whose 200 years anniversary celebrated this year attended philosophical, scientific view, aesthetic and esthetic thoughts and philosophical thoughts about religion, women and men law equality, the alphabet reform and etc. have been investigated in the article. The acquaintance of Akhundov with the European enlightener"s works and his services in the development of enlightened philosophical Huseynov's studying here. From the begining Akhundov have dealed all the events which took place in the East world with Islam religion and with the moollah who are religion cariers and then he kept loyal attention to Islam and valued highly positive influence to welfare. Taking into account the realism in intellect theory Akhundov adopted the unity of feeling and rationality.

In the conclution of Heydar Huseynov's investigation it especially is pointed out that Akhundov's scientific hereatage played especial role in the development of national culture of Azerbaijan and all eastern peoples.

**Keywords:** Democracy, Enlightenment, Freedom, Ideological Action, Rational Intellect, Social Development.

---

* Fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı/AZƏRBAYCAN; asrasad@mail.ru

Bu il görkəmli Azərbaycan mütəfəkkiri, maarifçi, drammaturq və filosofu Mirzə Fətəli Axundovun anadan olmasının 200 illiyi dövlət və YUNESKO xətti ilə geniş miqyasda qeyd edilir. Bu böyük filosofun Azərbaycan xalqı üçün gördüyü işlərin miqyası o qədər genişdir ki, anadan olmasından iki əsr keçməsinə baxmayaraq onun elmi irsi bu gün də öz aktuallığını saxlayır. Mirzə Fətəli Axundovun milli maarifçilik fəlsəfəsində Şərq xalqlarının azadlıq və səadəti uğrunda yorulmadan mübarizə aparmışdır. O "Kəmalüddövlə məktubları" traktatında öz fəlsəfi mülahizələrini, fəlsəfi dünyagörüşünü tam aydınlığı ilə göstərmişdir. Materialist fəlsəfənin müxtəlif məsələlərini və kateqorialarını bu əsər vasitəsilə tədqiq edən Axundov eyni zamanda maarifçiiliyin bir məfkurə hərəkatı kimi rolu və əhəmiyyətini də tam aydınlığı ilə açıb göstərmişdir. Axundov materialist mövqeyi əsas götürərək bütün dinlərə, o cümlədən də islam dininə birmənalı yanaşmamış, bəzən isə ateist mövqedən dinə qarşı mübarizənin labüdlüyünü vurğulamışdır.

Axundovun elmi-fəlsəfi irsi müxtəlif tədqiqatçılar tərəfindən fikrimizcə əsasən iki dövrdə tədqiq olunmuşdur.

Sovet dövrü tədqiqatçıları zamanın tələblərinə uyğun olaraq marksist metodologiyadan istifadə edərək (Hüseynov H, Qasımzadə F, Əhmədov Ə, Məmmədov A, Məmmədov Ş, Mustafayev Q, Məmmədzadə H, Rəfili M, Rüstəmov İ, Ramazanov F, A.P.Nəsir və s.) Axundovun irsini tədqiq etmiş və əsas diqqəti onun materialist fəlsəfəsi, dinə qarşı mübarizəsinə vermiş, Qərbi Avropa maarifçilik fəlsəfəsinin bütün xüsusiyyətlərinin məhz Axundovda cəmləşdiyini göstərməyə çalışmışlar. Bu dövrdə Axundov həm də drammaturq və nasir kimi ədəbiyyatçıların da tədqiqat obyektinə çevrilmiş, onun ədəbi tənqidi məqalələri və etik, estetik görüşləri haqqında kifayət qədər tədqiqatlar aparılmışdır.

Postsovet dövrün (müasir) tədqiqatçıları isə M.F.Axundova münasibətdə daha yumuşaq mövqe ortaya qoyur, onun bütün dinlərə, o cümlədən islam dininə heç də qarşı olmadığını vurğulayaraq sübut etmək istəyirlər ki, Axundov yalnız riyakar mollalar və din xadimlərinə qarşı mübarizə aparmışdır. Bu dövrün görkəmli tədqiqatçısı akademik Firudin Köçərli "M.F.Axundovun dünyagörüşü" monaqrafiyasında hətta Axundovu dindar və idealist kimi təqdim edir. F.e.d, Zümrüd Quluzadə isə Axundovun digər Azərbaycan maarifçilərindən fərqli olaraq din və dini dünyagörüşü ilə ardıcıl mübarizə aparmasını, islam dini ilə bağlı adət və ənənələrə qarşı radikalizmlə səciyyələnən və bir sıra məqamlarda obyektivlikdən kənar mülahizələri ilə tamamilə razılaşmırdı. Amma o, Axundovun fəlsəfi dünyagörüşünün Şərqin mədəni həyatına böyük təsirini də xüsusi ilə vurğulayırdı (7, 335-336).

M.F.Axundovu ilk dəfə fəlsəfi baxımdan tədqiqat obyektinə çevirən Heydər Hüseynov olmuşdur. H.Hüseynov da öz əsərlərində idoloji tələblərdən çıxış edərək dinə qarşı mübarizənin zəruriliyini vurğulasa da, islama qarşı, Şərq mentalitetinə qarşı münasibətdə Axundovun mövqeyini kənara qoyaraq əsas diqqəti fəlsəfi səpgiyə yönəldir. Baxmayaraq ki, o, bu məsələlərə daha çox diqqət yetirsəydi, toxunsaydı respublikada daha yüksək vəzifələrə yüksələ bilərdi. Həm də ateizmin təbliği və tədqiqi o dövrdə tədqiqatçıya bəraət qazandıra bilərdi. Amma bütün bunlara baxmayaraq H.Hüseynov ideoloji tələbləri nəzərə alaraq din və dini dünyagörüş barədə tənqidi fikirlər bildirsə də, Məhəmməd peyğəmbərə hörmətlə yanaşmış, onun haqqında "Kəmalüddövlə məktublarında" verilən məsələləri öz tədqiqatından kənarda

saxlamışdır. O marksist metodologiyadan doğma xalqının ləyaqətini gözləyərək istifadə etməyə üstünlük vermişdir. Sadaladığımız keyfiyyətlər H.Hüseynovun xalqımıza və milli mənafelərimizə nə qədər bağlı şəxsiyyət olduğunu bir daha təsdiq edir.

Azərbaycan xalqının böyük filosofu M.F.Axundov bir maarifçi kimi bütün orta əsr qalıqlarına qarşı ciddi mübarizə aparmışdır. M.F.Axundov öz dövründə mütərəqqi bəşəriyyətin yaratdığı elmi fikrin ən yaxşı varislərindən biri olmuşdur. O Mövlanə Cəlaləddin-Rumi, Şəbüstəri, Boql, Spinoza, Monteskiyo, Volter, Con Styuart Mil, Lametri, Didro, Helvetsi, Holbax, Çernışevski və sair böyük alimlərin öz dövrlərinə görə mütərəqqi fikirlərinin təbliğatçısı olduğu kimi, orijinal ideyaların, fəlsəfi müddəaların yaranmasında da cəsarətli addımlar atmışdır.

Heydər Hüseynovun fikrincə, M.F.Axundov Azərbaycan ictimai həyatını öz dövrünə görə ən yaxşı görən və onun bütün incəliklərini dərindən anlayan insan idi. M.F.Axundovun fəlsəfi görüşlərinin inkişafı, onun demokratik ideyalarının formalaşması ilə sıx surətdə əlaqədardır. M.F.Axundov ictimai-siyasi məsələlərlə daha çox maraqlanır, ictimai həyatın dəyişməsi üçün yollar axtarırdı. O, Rusiya və Qərbi Avropa mədəniyyəti ilə tanış olaraq rus xalqının dilini dərindən öyrənirdi (3, 8).

M.F.Axundovun ən mühüm fəlsəfi əsərlərindən biri “Hindistan şahzadəsi Kəmalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktub və Cəlalüddövlənin ona göndərdiyi cavabdır. M.F.Axundov öz əsərinin bütün dünyaya yayılması uğrunda ciddi mübarizə aparmışdır. Bu əsər 1924-cü ildə ilk dəfə olaraq Bakıda nəşr edilmişdir. M.F.Axundov “Kəmalüddövlə məktublarının” nəşri mümkün olacağı təqdirdə əsərin heç bir yerinin dəyişdirilməməsini dönə-dönə tələb edirdi. Bəziləri bir az üstüörtülü və yumuşaq yazılmasını Axundova təklif edirdilər. Cəsarətli və mübariz M.F.Axundov, 1870-ci il 17 dekabr tarixli Mirzə Yusifxana məktubunda yazırdı: “Əgər mən də əsərimi Mollayi Rumi, Şeyx Mahmud Şəbüstəri, Əbdülrəhman Cami və sair mütəfəkkirlər kimi yazmış olsam, mənfəətsiz olub qalar. Onlar öz fikirlərini ifadə edərkən cəsarətsizlik və qorxaqlıq göstərmişlər. Buna görə də onların əsərləri indiyə qədər anlaşılmamış qalmış və heç kəs onların əsərlərindən bir səmərə əldə etməmişdir.

Lakin fransız Volter və ingilis Boql və sair Avropa filosofları eyni fəlsəfəni öz düşüncələrinə uyğun olaraq bütün açıqlığı ilə, qorxmadan, cəsarətlə ifadə etmişlər. Buna görə də onlar bütün dünyaya səs salıb Avropanın bugünki sivilizasiyasının faktoru olmuşlar. Əgər nüsxənin (Kəmalüddövlə məktubları- R.Ə) olduğu kimi ixtisarsız və əlavəsiz, dəyişdirmədən, heç bir örtük örtmədən çap olunması mümkün isə qoy çap etdirsinlər. Əgər bu mümkün deyilsə, nüsxənin atəşinliyini, təsirliyini və təzəliyini dəyişdirmə yolu ilə puç etmək məqsədə uyğun deyildir, qoy olduğu kimi qalsın. Bəlkə bir zaman keçdikdən sonra bizim oğullarımızdan, ardımızca gedənlərdən idrak və bacarıq sahibi olanlar yuxarıdakı səbəbləri nəzərə alaraq nüsxəni çap etdirər. O zaman nüsxə, indiyə qədər cəhalət və avamlıq okeanında qərq olan Asiya tayfalarının xoşbəxtliyi, qurtuluşu səbəbi olar. Hicrətdən bu vaxta qədər bu cür kəskinliklə heç bir əsər yazılmamışdır. Lakin bu əsər çap olunduqdan sonra, dünyanın hər yerində bundan daha kəskin əsərlər yazılacaqdır. Mən bu nüsxəni tərtib etməklə nəinki sivilizasiyaya xidmət etmək istəyirəm, mən insanların düşünə bilməsinə, filosof və mütəfəkkirlərimizin ... həbsdə qalan təsəvvürlərini azad etmək istəyirəm. Mən insanlığı korluqdan qurtarmaq istəyirəm. İnsanın altmış və ya yetmiş il kor-koranə yaşayıb və sonra ölməsindən nə mənfəət vardır” (3, 8).

Əslində, Axundovun Şərq fəlsəfəsi haqqında dediyi bu kimi fikirlər tamamilə həqiqətdən uzaq baxışlardır. Çünki, yuxarıda adları sadalanan mütəfəkkirlər nəinki Şərqdə, həm də Qərbdə qəbul edilmiş alimlər olmuşlar. M.F.Axundov isə Avropa maarifçiliyinə elə vurğun olmuşdur ki, o Şərqin filosoflarının baxışlarını da qəbul etmir, onların irəli sürdüyü ideyaları Qərb maarifçilərinin süzgəcindən keçirib cəmiyyətə çatdırmaq istəyirdi. Aydın məsələdir ki, bu halda Şərq mütəfəkkirləri dini-idealist dünyagörüşündən azad olub, materialist yönümlü mütəfəkkirlər olmalı idilər. Məhz buna görə də onlar Axundovun tənqid hədəfinə çevrilirdilər.

Heydər Hüseynovun fikrincə, M.F.Axundov qətiyyətlə inanırdı ki, bu əsərin nəşri köhnə təsəvvürləri dəyişdirəcəkdir. Bu əsər olduğu kimi çapa getdikdən sonra isə "Şərq dünyası"nda intibah və oyanış yaranacaq ki, bu da burada müasir sivilizasiyalı cəmiyyətin yaranıb inkişaf etməsinə gətirib çıxaracaqdır.

Əlbəttə, M.F.Axundov əvvəllər Şərq filosoflarının əsərləri ilə tanış olduğundan onların təsiri altında özünü Cəlaləddin Rumi, Qəzali kimi mütəfəkkirlərin tərəfdarı kimi çıxış edirdi. Sonralar isə o, Cəlaləddin Ruminin tənqidinə başladı. Əslində bu Axundovun fəlsəfi görüşlərində olan ən böyük çatışmamazlıq idi ki, o bütün dünya fəlsəfi fikir tarixində qəbul olunan mütəfəkkirləri qəbul etmirdi. Əlbəttə bu fikirlər Axundovun dünyagörüşünə Qərbi Avropa maarifçi filosoflarının əsərləri ilə tanışlıqdan sonra hakim kəsilmişdi. Heydər Hüseynov bu məsələdə Axundovun ideya irsi ilə eyni mövqedən çıxış etmir, Şərq alimləri və Azərbaycan filosoflarının ictimai fikir tariximizdəki rolunu və yerini yüksək qiymətləndirir və onların Şərq dünyasının oyanmasındakı fəaliyyətinə böyük önəm verirdi.

H.Hüseynova görə, M.F.Axundovun idrak nəzəriyyəsinin əsasında obyektiv varlıq – təbiət durur. O, ağılın böyük rol oynadığını qeyd edərək yazır: "Bəşəriyyətin xoşbəxtlik və səadəti o vaxt mümkün olacaqdır ki, istər Asiyada və istərsə də Avropada insanın ağlı tamamilə əbədi həbsdən qurtulacaq, işlər və fikirlərdə nəql deyil, yalnız insan ağlı istinadgah və dəlil tanınaraq hakimi mütləq olacaqdır" (3, 39).

M.F.Axundov idrak prosesində duyğuların başlıca çıxış nöqtəsi olduğunu qəbul edərək bildirirdi ki, o şeylərdən duyğulara doğru gedir. Duyğunu yaradan varlıq təbiətdən başlayır. Şeylərdən duyğuya və ya düşüncəyə doğru getmək, yaxud düşüncədən duyğuya, şeylərə doğru getmək dilemmasında M.F.Axundov birinciyə daha çox üstünlük verirdi. Lakin, onun fikrincə, idrak prosesində insanın beş duyğusu kafi deyildir. Bu beş duyğu ilə ruhun və yaxud işığın, maqnit qüvvəsinin nə olduğunu anlamağın mümkün olmadığını bildirən M.F.Axundov idrakda elmin ən kəskin silah olduğunu vurğulamaqdan çəkinmirdi. Ona görə, idrak prosesi təbiətdə olan qanunauyğunluğu açıb göstərməkdən ibarətdir. M.F.Axundov idrak prosesində ağılın rolunu ardıcıl surətdə göstərərək bildirirdi ki, insanların biliyi artdıqca onların düşüncə dairəsi genişlənir, idrak daha dərin və əhatəedici olur (3, 39).

H.Hüseynovun fikrincə, M.F.Axundovun dövlət quruluşu haqqındakı fikirləri də xüsusi əhəmiyyətə malikdir. M.F.Axundov cəmiyyətdəki bütün çatışmamazlıqları Qərbi Avropada baş verən inqilabların təsirindən yararlanaraq əvvəllər islahat yolu ilə həll etmək istəyirdi. Lakin bu islahatların baş vermədiyini gördükdə, o, despotizm və köhnə hakimiyyətin dəyişdirilməsini xalqın birliyi və ittifaqında görürdü (3, 43).

Cəmiyyətdə hamının bərabər hüquqa malik olmadığını göstərən M.F.Axundov qadın və kişi hüququ məsələsinə böyük önəm vermişdir. Onun fikrincə, bütün qanunlar qadınların hüququnu ya qətiyyən qeyd etmir ya da məhdud edir. Buna görə də hüquqi

bərabərlik ancaq sözdə vardır. M.F.Axundov həqiqi bərabərlik üçün azadlıq ideyasını irəli sürür. Mütəfəkkir cəmiyyətin inkişafı, tərəqqisi üçün fikir azadlığının böyük əhəmiyyəti olduğunu qeyd edərək Con Stüart Milin azadlıq haqqındakı fikirlərindən bəhs edərək deyir: "Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə, heç bir inkişaf olmaz, mədəniyyətdə, elmdə, durğunluq əmələ gələr. O, azadlığın insanın təbiətində olduğunu irəli sürür, insan azadlığına qarşı çıxanları isə qüvvətli sürətdə tənqid edirdi" (1, 207).

Heydər Hüseynovun fikrincə, M.F.Axundov öz xalqını savadlı görməyi çox istəyirdi. Buna görə də ilk növbədə Azərbaycan xalqı tərəfindən yeni əlifbanın (latın əlifbası-R.Əsgərov) qəbul edilməsini zəruri sayırdı. O, bildirirdi ki, ərəb əlifbası elmin və mədəniyyətin inkişafına, geniş xalq kütlələri arasında maarifin yayılmasına böyük maneə yaradır. M.F.Axundov əlifba islahatını elmi cəhətdən əsaslandırmış və praktiki olaraq yeni əlifbanın qəbul edilməsi-Şərqdəki mədəni inqilab uğrunda mübarizə aparırdı. Bu iş uğrunda yorulmadan, cəsarətlə mübarizə aparan Axundov yazırdı: "Mənim əlifbam yüz ildən sonra şərq ədəbiyyatında öz layiqli yerini tutacaq... Bu əlifba ilə yeni əsərlər yazılacaq, həmçinin onun hərfləri ilə köhnə kitablardakılar oxuculara çatdırılacaq... O zaman mənim məqsədimə nail olunacaq və mən qabaqcadan arxayın ola bilərəm, baxmayaraq ki, o xoşbəxt günü görməyəcəyəm" (4, 293).

M.F.Axundov əlifbanın dəyişdirilməsinin zəruriliyini vurğulayaraq 1871-ci ilin mart ayında Mirzə Melkum xana yazdığı məktubda deyirdi. "Mən və sən əlifbanı dəyişdirmək fikrini irəli sürməklə öz borcumuzu bəşəriyyət qarşısında və mədəniyyətin inkişafı uğrunda yerinə yetirmişik. Bizim adımız həmişə tarixdə qalacaq və övladlarımız tərəfindən hörmət və iftixarla qeyd ediləcəkdir. Biz istəyirik ki, qüdrət və sərvət sahibi olan müasirlərimiz bu fikri həyata tətbiq etmək yolu ilə gələcək nəsillər yanında iftixar əldə etsinlər..." (2, 121).

H.Hüseynova görə, Axundovun əlifba islahatı uğrunda apardığı mübarizə sonralar milli əlifbamızın formalaşmasına və xalqımızın avropa elmi və mədəniyyətinə inteqrasiyasına öz töhfəsini vermiş, maarifçilik məfkurəvi bir hərəkat kimi Azərbaycanda təşəkkülünə və inkişafına zəmin yaratmışdır.

M.F.Axundov Azərbaycan xalqının milli xarakteri məsələsinə dair maraqlı mülahizələr söyləmişdir. Onun fikrincə qeyrət, namus, ədalətlilik, fədakarlıq, xeyirxahlıq, işgüzarlıq, həqiqətpərəstlik, qəhrəmanlıq, xalqı və vətəni sevmək, şücaətli, sədaqətli olmaq və b. tarixən formalaşıb gələn keyfiyyətlər azərbaycanlıların, milli xarakterini müəyyən edən keyfiyyətlərdir.

Axundov milləti zülmətdən nicat tapıb işıqlığa çıxartmağı özünün ən əsas məqsədi sayırdı. O, aydın görürdü ki, xalqda milli mənlik, milli ləyaqət şüurunu inkişaf etdirmədən, vətənpərvərlik hissi aşılamadan, onu geniş sosial tərəqqi və milli müstəqillik yoluna çıxarmaq olmaz. Axundov belə hesab edirdi ki, vətənpərvərlik millətin özünü dərk etməsi, öz ləyaqətini qiymətləndirməsi, bir sözlə, milli mənlik şüurunun inkişafı əlamətidir. Vətən və el təəssübü çəkmək qeyrətlilik əlamətidir, şərəf və şöhrət qazanmaq yoludur.

Axundov belə hesab edirdi ki, millətin patriot olması özünü dərketmənin, öz gücünə inamın, bir sözlə millətin mənlik şüurunun inkişafı əlamətidir. O, Həsən bəy Zərdabiyə məktubunda yazırdı: "Qoy bizim millətimiz də bir az gözü açılıb fanatizmdən çıxsın, bəlkə patriot olsun, onda hər nə etsən, baş tutar". Axundov özünün vətənpərvər olduğunu dönə-dönə, həm də böyük iftixarla söyləmişdir (2, 212).

O, aydın görürdü ki, xalqda milli mənlik şüurunu inkişaf etdirmədən onu geniş sosial tərəqqi və milli müstəqillik yoluna çıxarmaq olmaz. Filosofumuz məhz belə bir mövqedən yaltaqlığı, həmçinin insanların şəxsi və milli ləyaqətini kiçildən digər əxlaqi eybəcərlikləri qətiyyətlə pisləyir, həmvətənlərində vətənpərvərlik, milli iftixar şüuru aşılamağı xalqın milli xarakterinə aid məsələlər kimi xüsusi qeyd edirdi. O, xalqın milli mənlik şüurunun inkişafı məsələsini ciddi bir kəskinliklə qoyur, milli şüurun inkişafını həm də xalqın müstəqillik uğrunda mübarizəsi üçün ən zəruri şərtlərdən hesab edirdi (5).

Heydər Hüseynovun fikrincə, Axundovun etik görüşləri üçün səciyyəvi olan belə bir mühüm cəhəti xüsusi qeyd edək ki, o, əxlaq-mənəviyyat məsələlərinə bir qayda olaraq yüksək mövqedən – ümumxalq mənafeyi mövqeyindən yanaşmış, “bütün xalqın tərəqqisini”, “hamının maariflənməsini”, “bütün islam xalqlarının” savadlanması, elmlərə, sənətlərə yiyələnməsini arzu edir, bu uğurda mübarizə də aparırdı. Filosofumuz dönə-dönə təkrar edirdi ki, xalqı cəhalət qaranlığından elmin işığına çıxarsam və bu arzuma nail ola bilsəm, bu böyük xoşbəxtlik olar və dünyadan muradıma çatmış bir insan kimi gedərəm.

Axundov öz dövrünün və xalqının oğludur. Azərbaycanın XIX əsr “dönüş” dövrü onu dahilər səviyyəsinə qaldırmışdır. Fransa tarixçisi Minyenin “böyük insan doğulmaq kifayət deyil, həm də vaxtında doğulmaq lazımdır” – fikrini tamamilə Axundova da aid edə bilərik. Yazıçı və filosof Azərbaycan tarixinin ictimai-siyasi hadisələrlə olduqca zəngin bir dövründə, “ölən” feodalizm və “doğulan” kapitalizm cəmiyyətlərinin keçidində yaşayıb fəaliyyət göstərmişdir. Yaşadığı və fəaliyyət göstərdiyi dövr onun fikri inkişafını, bütün taleyini müəyyən etmişdir. Axundov bütün həyatı, bütün şüuru ilə dövrünə bağlı sənətkardır. O, xalqının mənəvi inkişafının təcəssümü olmaqla, eyni zamanda xalqın özünün mənəvi tərəqqisində fəal iştirak etmişdir. Axundovun dünyagörüşü ictimai həyatda, kütlələrin şüurunda, sosial psixologiyasında əmələ gələn yeniləşmə və dəyişiklikləri əks etdirərək formalaşmışdır (7, 140-150).

Heydər Hüseynova görə, Axundovun bütün fəaliyyəti böyük bir məqsədə - doğma xalqını geniş sosial tərəqqi yoluna çıxarmaq uğrunda mübarizəyə yönəlmişdi. Azərbaycan mədəniyyətinin inkişafının bütöv bir dövrü, onun milli mədəniyyət kimi qərarlaşması və inkişafı Axundovun çoxcəhətli yaradıcılığı və fəaliyyəti ilə sıx bağlıdır.

Hazırda respublikamız müstəqil, demokratik və hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyir. Dövlətimizin mənafeyi bu gün bizdən daha çox milli birlik, ümummilli mənafedə birləşmək, Azərbaycan dövlətinin qüdrətini daha da möhkəmlətməyi tələb edir. Bu mənada 200 illik yubileyini qeyd etdiyimiz görkəmli filosof, ədib, maarifçi, həqiqi vətənpərvər M.F.Axundovun mənalı və şərəfli həyat yolu bizim üçün gözəl nümunədir.

Beləliklə, M.F.Axundovun dünyagörüşünü tədqiqat obyektinə çevirən akademik Heydər Hüseynov bildirirdi ki, o, Azərbaycanda ictimai və fəlsəfi fikrin inkişafı tarixində bütöv bir dövr yaradaraq milli mədəniyyətimizin inkişafına misli-bərabəri olmayan töhfəsini vermişdir. Bu zəngin, geniş eridusiyaya malik alimin bizə miras qoyub getdiyi irs xalqımızın fəlsəfi və ədəbi fikir tarixində əbədi olaraq yaşayacaqdır.

**"...Kainat bir vahid, qadir və kamil vücuddur. Əvvəli də budur, axırı da. Nə ondan qabaq başlanğıc olmuşdur, nə də ondan sonra nəhayət olacaqdır. Zaman onun tələblərindən, məkan isə keyfiyyətlərindən sayılır, çünki zaman və məkan bu varlığın əsil atributlarıdır". M. F. AXUNDOV**

## KAYNAKÇA (ƏDƏBİYYAT)

1. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2005, 376 səh.
2. Axundzadə Mirzə Fətəli. Əsərləri. Üç cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2005, 296 səh.
3. H.Hüseynov. M.F.Axundovun fəlsəfi görüşləri. EAAzF Nəşriyyatı, Bakı -1938, 72 səh.
4. H.Hüseynov. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, Zəkioğlu nəşriyyatı-2006, 544 səh.
5. Köçərli F. M.F.Axundov Azərbaycan xalqının milli xarakteri haqqında. Şəhriyar qəzeti 24 mart 1995. N:12 (107).
6. Köçərli F.Q. M.F.Axundov və yeni dövr Azərbaycan mədəniyyətinin təşəkkülü. Azərbaycan EA-nın xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası. 1990, N:1, s. 80-92.
7. Z.Quluzadə. Konseptualnıe problemı issledovaniya soçiokulturnoqo razvitiya (koneç XX –naçalo XX vv.)., ç II. Baku: "Teknur", 2009. s.398.